# Qarabağ Universitetində vakansiya – insan resursları üzrə mütəxəssis

**İşəgötürən:** "Qarabağ Universiteti" publik hüquqi şəxs

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınaraq regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universiteti yaradılıb.

Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli 73 nömrəli Qərarı ilə təsdiq olunmuş "Qarabağ Universitetinin Nizamnaməsi"nə əsasən, ali təhsilin bütün səviyyələri üzrə genişprofilli mütəxəssis və yüksəkixtisaslı elmi kadrların hazırlanması, eləcə də orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi, elmin müxtəlif sahələri ilə bağlı tədqiqatların aparılması universitetin fəaliyyət istiqamətlərinə daxil edilib.

Qarabağ Universiteti fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, eləcə də təhsilalanların yüksəksəviyyəli bilik və bacarıqlarla təmin olunması məqsədilə yüksəkixtisaslı peşəkar kadrlar üçün vakansiya elan edir.

**Vəzifə:** insan resursları üzrə mütəxəssis

**İşin təsviri:**
- universitetdə vakant vəzifələr üzrə tələblərə uyğun elanların hazırlanması və müxtəlif resurslarda yerləşdirilməsi;
- daxil olmuş CV-lərin ilkin baxışdan keçirilməsi, müsahibələrin təşkili və uyğun namizədlərin seçilməsi;
- insan resurslarının idarə edilməsi ilə bağlı daxili prosedurların icrası;
- universitet daxilində əmək münasibətlərinin qanunvericiliyə uyğun olaraq idarə edilməsi;
- əməkdaşların fəaliyyətinin qiymətləndirilməsinin təşkili və bu istiqamətdə yeni təkliflərin irəli sürülməsi;
- insan resursları sahəsində müasir trendlərin araşdırılması və effektivliyin artırılması məqsədilə mövcud yeniliklərin iş prosesinə tətbiqi;
- mükafatlandırma və motivasiya sisteminin qurulmasına dair təkliflərin hazırlanması;
- universitet əməkdaşlarının təlim və inkişaf ehtiyaclarının müəyyən edilməsi və bu istiqamətdə müxtəlif proqramların həyata keçirilməsinə dair təkliflərin hazırlanması;
- işçilərin şəxsi işləri, eləcə də onlara məzuniyyətlərin verilməsi uçotunun aparılması, məzuniyyətdən vaxtında, tərtib olunmuş qrafik üzrə istifadəyə nəzarət edilməsi;

- şəxsi işlərin arxivləşdirilməsi, vaxtı keçmiş işlərin dövlət arxivinə verilməsinin təşkili;
- insan resurslarının fəaliyyəti ilə bağlı rəhbərliyə hesabatların təqdim olunması;
- rəhbərliyin digər əlaqəli tapşırıqlarının icra edilməsi.

**Tələblər:**
- insan resursları, hüquq və ya digər əlaqəli sahə üzrə ali təhsil;
- insan resursları sahəsində minimum 3 il iş təcrübəsi (sözügedən təcrübənin təhsil müəssisəsində olması üstünlükdür);
- Azərbaycan Respublikasının Əmək Məcəlləsi üzrə biliklər;
- Azərbaycan və ingilis dillərində yüksək səviyyədə ünsiyyət bacarıqları;
- "Elektron hökumət" portalı, "Əmək və məşğulluq" altsistemindən (ƏMAS) sərbəst istifadə bacarığı;
- tədqiqat və analitik təhlil bacarığı;
- insan resurslarının idarə edilməsi üzrə beynəlxalq sertifikatların (CIPD, HRCI, CPHR, SHRM və digər) olması üstünlükdür.

**Tələb olunan sənədlər:**
- tərcümeyi-hal;
- CV;
- ali təhsili təsdiq edən sənəd və ya sənədlərin surəti.

*Qeyd: universitetdə daimi əsaslarla çalışan əməkdaşlar Xankəndi şəhərində tədris ilinin əvvəlindən başlayaraq işlədikləri müddətdə mənzillə təmin olunacaqlar.*

**Rəqabətədavamlı əməkhaqqı təklif olunur.**

**Müraciət üçün son tarix: 3 iyun 2024-cü il**

*Müraciət üçün qeyd edilən tarixədək lazımi sənədləri* ***karabakh@edu.gov.az*** *elektron poçt ünvanına başlıqda "İnsan resursları üzrə mütəxəssis" yazmaqla göndərməyiniz xahiş olunur.*